Dövlətçilik, tarix, mədəniyyət

YENİ MÜSAVAT

N 108 (8718) 25 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Qarabağ Zəfərinə aparan yol - 107 yaşlı Ordumuz!

## Vətən müharibəsi təkcə torpaqların azad olunması deyildi, bu savaş xalqın öz ordusuna sonsuz inamının, sevgisinin və birliyinin möhtəşəm nümayişi idi...

**26 iyun - bu tarix hər bir azərbaycanlının qəlbində qürur, güvən və minnətdarlıq hissləri oyadır. Çünki bu gün Azərbaycan Silahlı Qüvvələrinin - xalqımızın şanlı qalxanı, Vətən keşiyində duran igidlərimizin günüdür. Artıq 107 ildir ki, bu ordu torpağımızın, millətimizin təhlükəsizliyi uğrunda mübarizə aparır. Bir əsrlik tarixdə yüzlərlə qəhrəmanlıq salnaməsi yazılıb. Amma onların zirvəsində bir Qələbə var ki, bütün Azərbaycanı ayağa qaldırdı, bütün dünyaya "Mən varam!" deyə hayqırdı. Bu, 2020-ci ilin Vətən müharibəsində əldə edilən Qarabağ Zəfəridir!**

Bu zəfər təkcə bir ərazinin işğaldan azad edilməsi deyildi, bu, xalqın bir yumruq kimi birləşməsi, haqqın, ədalətin səsi, tarixin axarını dəyişən bir dönüş nöqtəsi idi. Dəfələrlə vurğulanıb və yenə deməyə dəyər: bu Qələbə xalqımızın çoxəsrlik tarixində bənzəri olmayan bir nailiyyətdir!

Bu gün biz Ordumuzun 107 illik yoluna baxarkən, o salnamənin hər sətrində canlarını fəda etmiş şəhidlərimizin izini görürük. Bu yolun sonunda isə xalqın başını dik edən bir Qarabağ Zəfəri durur. Bayrağımızın Zəfərlə yüksəldiyi yerdə Ordumuzun imzası var.

### Bir millətin ordu ilə başlanan hekayəsi:

Bünövrəsi 1918-ci il iyunun 26-da qoyulub. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə həmin gün ölkənin ilk müntəzəm hərbi birləşməsi - Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu hadisə, dövlət müstəqilliyinin qorunması və milli suverenliyin təmin olunması yolunda atılmış tarixi bir addım idi.

Dövlət qarşısına 25 min nəfərlik güclü, mütəşəkkil ordu qurmaq məqsədi qoydu. Cəmi bir neçə ay sonra, avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis edildi və Xosrov bəy Sultanov ilk hərbi nazir təyin olundu. Lakin daha sonra hərbi rəhbərlikdə böyük dəyişikliklər baş verdi: dekabrın 25-də görkəmli sərkərdə və Rusiya imperiyasının generalı Səməd bəy Mehmandarov hərbi nazir oldu. Onun müavini isə başqa bir parlaq hərbi şəxsiyyət, topçu sənətinin ustadı, general-leytenant Əlağa Şıxlinski idi.

Bu komandanlıq təkcə hərbi təlim və strukturlaşmanı deyil, həm də orduda milli ruhun və vətənpərvərliyin aşılanmasını ön plana çəkdi.

Azərbaycan Ordusunun tarixində ilk döyüş və eyni zamanda ilk qələbə 1918-ci ilin sentyabrına təsadüf edir. Nuru Paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu Bakını və ətraf əraziləri erməni-bolşevik qüvvələrinin işğalından azad etdi. Bu zəfər təkcə paytaxtın azadlığı deyil, həm də xalqın ruhunun, dövlətin siyasi varlığının möhkəmləndirilməsi demək idi. Bir il sonra, 1919-cu ildə Bakının mərkəzində, bu gün Muzey Mərkəzi kimi tanınan ərazidə ilk hərbi parad keçirildi. Bu parad təkcə ordunun gücünü nümayiş etdirmək üçün deyil, eyni zamanda xalqın öz hərbi qüdrətinə olan inamını gücləndirmək məqsədi daşıyırdı.

### Yarımçıq qalan ordu - 1920-ci il faciəsi

Lakin bu möhtəşəm inkişafın ömrü uzun olmadı. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində bolşevik rejimi Azərbaycanda hakimiyyəti ələ keçirdi və Milli Ordunu ləğv etdi. Bu ləğv sadəcə bir strukturun dağıdılması deyildi - bu, yüzlərlə hərbçinin, zabitin, generalın həyatına son qoymaqla müşayiət olundu. Cümhuriyyət dövrünün hərbi elitası, o cümlədən 15 general Nargin adasında güllələndi. Onların çoxu bolşevik repressiyasının qurbanı oldu. Onlar təkcə silah daşımamış, həm də millətin arzularını daşıyan insanlar idilər. Bu fədakar zabitlərin həyatı yarımçıq qaldı, amma miras qoyduqları ordu ideyası zamanla yenidən dirçəldi.

### Ordunun dirçəlişi: Qurtuluşdan Zəfərə...

1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycanın qarşısında duran ən vacib vəzifələrdən biri güclü ordu qurmaq idi. Lakin ilk illərdə siyasi qarışıqlıq və rəhbərliyin səriştəsizliyi fonunda ordu quruculuğu sahəsində ciddi boşluqlar yaşanırdı. Nizami ordu yox idi, silahlı birləşmələr ayrı-ayrı şəxslərin nəzarətində idi. Bu vəziyyətdən istifadə edən Ermənistan Silahlı Qüvvələri torpaqlarımızı ard-arda işğal edir, ölkə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalırdı.

Belə ağır bir məqamda xalqın təkidli çağırışı ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev ordu quruculuğuna start verdi. Əsas diqqət dağınıq silahlı dəstələrin ləğvinə, nizami və peşəkar ordunun yaradılmasına yönəldi. Bu proses təkcə hərbi deyil, milli dirçəliş idi.

Əslində Heydər Əliyevin ordu quruculuğundakı rolu təkcə 90-cı illərlə məhdudlaşmır. Hələ sovet dövründə - 1971-ci ildə onun təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı. Bu məktəb sonradan yüzlərlə azərbaycanlı zabitin yetişdirilməsində müstəsna rol oynadı. Onlar Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, Vətən müharibəsində qəhrəmanlıq nümunələri göstərdilər.

Ordumuzun ilk böyük sınağı 1994-cü ilin yanvarında oldu. Füzulinin 20 kəndi və Horadiz qəsəbəsi azad edildi. Bu, qələbəyə olan inamın rəsmi başlanğıcı idi. 1998-ci ildə Heydər Əliyevin imzaladığı fərmanla 26 iyun Silahlı Qüvvələr Günü elan olundu.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ordunun texniki təchizatı, döyüş hazırlığı, şəxsi heyətin peşəkarlığı sürətlə artırıldı. Məhz bu iradənin nəticəsində Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Qələbə qazandı və bütün dünyaya sübut etdi: Azərbaycan Ordusu artıq regionun ən qüdrətli hərbi gücüdür.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində rəşadətli Ordumuzun qazandığı şanlı Qələbə tariximizə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Təsadüfi deyil ki, XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusunun döyüş əməliyyatları, xüsusən Şuşa əməliyyatı bu gün dünyanın qabaqcıl hərbi məktəblərində öyrənilir.

2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda keçirilmiş möhtəşəm Zəfər Paradını xüsusi qeyd etmək lazımdır. Düşməndən qənimət olaraq götürülmüş silah-sursat və texnika ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız bu paradda nümayiş etdirildi.

Vətən müharibəsində 2900-dən çox əsgər və zabitimiz doğma torpaqlarımızın azad edilməsi uğrunda şəhid oldu. Bu şanlı Qələbəni xalqımıza yaşatmış rəşadətli Ordumuzun qəhrəmanlığını yüksək qiymətləndirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşlərdə igidlik göstərmiş hərbi qulluqçularımızın təltif olunması ilə bağlı sərəncamlar imzalayıb. 2020-2021-ci illərdə imzalanmış sərəncamlarla ümumilikdə 159 mindən çox hərbi qulluqçu müxtəlif orden və medallarla təltif olunub.

Prezidentin 2022-ci il iyunun 25-də imzaladığı sərəncamlarla Müdafiə Nazirliyinin 8 hərbi qulluqçusuna ali hərbi rütbələr verilib, 106 hərbi qulluqçu orden və medallara layiq görülüb.

Vətən müharibəsi təkcə torpaqların azad olunması deyildi. Bu savaş xalqın öz ordusuna sonsuz inamının, sevgisinin və birliyinin möhtəşəm nümayişi idi. Hər döyüş tapşırığını dəqiqliklə yerinə yetirən Azərbaycan əsgəri, düşmənin illərlə qurduğu müdafiə xətlərini söküb dağıdan rəşadətli zabitlər elə bir ordu yaratdılar ki, dünya bir daha Azərbaycanın gücünü tanımalı oldu. Bu gün bütün dünya 44 günün dastanını danışır. Azərbaycan Ordusu yalnız torpaqları azad etmədi, həm də qürurumuzu qaytardı, tarixi ədaləti bərpa etdi. Və bu tarixi zəfərin arxasında bir ad daha var - xalqı ilə bir olan, ordusunun önündə dayanan, dəmir yumruğu ilə qələbəni təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyev. Azərbaycan xalqı bu gün qalib Ordusu və qalib Lideri ilə fəxr edir!







Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY